INTERNATIONAL MONETARY FUND
EXTERNAL RELATIONS DEPARTMENT

Mətbuat üçün Məlumat No. 12/450
TƏXİRƏSALINMADAN NƏŞR EDİLMƏLİDİR
20 Noyabr, 2012-ci il

Beynəlxalq Valyuta Fondu
Vaşinqton, Kolumbiya Dairəsi,
ABŞ 20431

**BVF əməkdaşlarının Azərbaycana səfərinin yekunlarına dair bəyanat**

2012-ci il, 8-20 noyabr tarixində Beynəlxalq Valyuta Fondunun (BVF) missiyası ikin olaraq 2013-cü il fevral ayının sonuna planlaşdırılan IV Maddə üzrə növbəti Məsləhətləşmələr missiyasına hazırlıq məqsədilə, dövlətin iqtisadi siyasətini və Azərbaycan iqtisadiyyatının gələcək perspektivlərini müzakirə etmək üçün Bakıya səfər etmişdir. BVF əməkdaşları yüksək dövlət rəsmiləri və qeyri-hökümət sektorunun nümayəndələri ilə görüşmüşdür.

Səfərin sonunda, Azərbaycan üzrə missiyanın rəhbəri cənab Almarzoqi, bu gün aşağıdakı bəyanatla çıxış etmişdir:

"Yaxın müddət üçün iqtisadi artım perspektivləri bütövlükdə əlverişlidir. Dövlət xərclərindən geniş şəkildə qaynaqlanan qeyri-neft iqtisadiyyatının artım tempi 2013-cü ildə 8%-ə çata və neft hasilatında proqnozlaşdırılan azalmanı artıqlaması ilə kompensasiya edə bilər. 12 aylıq inflyasiya son dövrdə enmişdir, lakin davamlı dövlət xərcləri və qlobal ərzaq qiymətlərinin bu yaxınlarda bahalaşmasının təsiri ilə əlaqəlidar olaraq 2013-cü ildə inflyasiya yüksələ bilər. Qlobal və regional iqtisadi perspektivlərlə bağlı olan risklərin dinamikası azalmağa meyllidir, lakin geosiyasi vəziyyətlə əlaqədar olaraq dünyada neft təklifi ilə bağlı yüksələn risklər meydana çıxa bilər."

" İnvestisiyaları prioritetləşdirərək 2012-ci ilin yekunlarına nisbətən 2013-cü il qeyri-neft kəsirinin azaldılması, makroiqtisadi sabitlik üçün riskləri məhdudlaşdırmağa və qlobal iqtisadiyyatın mümkün pisləşməsi halında siyasətin aparılması üçün qoruyucu ehtiyatları gücləndirməyə kömək edəcəkdir. Büdcə-vergi çərçivəsini yenidən nəzərdən keçirərək xərclər və neftin cari qiymətləri arasındakı əlaqənin aradan qaldırılması və büdcə-vergi siyasətinin daha qabaqcadan gözlənilən və daha etibarlı edilməsi özəl investisiyaların stimullaşdırılması üçün həlledici əhəmiyyət kəsb edir. BVF neft gəlirlərinin idarə edilməsi və pensiya islahatları sahəsində texniki yardım göstəməyə hazırdır."

"Dövlət xərcləri və kredit artımının son dövrdə sürətlənməsi nəticəsində tələblə bağlı təzyiqlər yaranarsa, Mərkəzi Bank pul siyasətini sərtləşdirməli olacaqdır. İqtisadi siyasət alətləri məhduddur, buna görə də məzənnənin daha çevik olması üçün şərait yaratmaqla faiz

dərəcəsinin təsirinin ötürülməsi üçün mexanizmin gücləndirilməsi inflyasiya dəyişikliklərinə uzun müddət ərzində daha yaxşı nəzarət etməyə kömək edəcəkdir."

"Minimum kapital tələbinin yüksəldilməsi qeyri-işlək kreditlər və kredit itkisi halları üçün nəzərdə tutulan ehtiyatlara dair yeni normativ aktların qəbul ediləcəyi təqdirdə alqışlanır. Prudensial tədbirlər, xüsusilə istehlak kreditləri sahəsində, kreditlərin artım tempini nəzarətdə saxlamağa kömək edə bilər. Hazırlıq işləri hələ də aparılsa da, missiya təəssüf edir ki, bank sistemi üçün belə həlledici əhəmiyyətli bir zamanda BVF və Dünya Bankının Maliyyə Sektorunun Qiymətləndirilməsinə dair birgə Proqramının (FSAP) yenilənməsi yubadılır. Rəsmi orqanlar ilə razılaşdırılmışdır ki, FSAP 2014-cü ilin əvvəlində keçiriləcəkdir."

"İxracı stimullaşdıra, iş yerləri yarada, diversifikasiyanı dəstəkləyə bilən və aparıcı qüvvəsi rəqabət qabiliyyətli özəl sektor olan qeyri-neft iqtisadiyyatının inkişaf etdirilməsi üçün dərin struktur islahatları həlledici əhəmiyyət kəsb edəcəkdir. Yeni gömrük məcəlləsinin tətbiqi və ÜTT-ə üzvlüyün yekunlaşdırılması və rəqabət üçün maneələrin məhdudlaşdırılması neftdən daha az asılı olan yeni iqtisadi artım strategiyasının hazırlanmasında əsas rol oynayacaqdır."

"Missiya qonaqpərvər münasibət və konstruktiv müzakirələrə görə rəsmi orqanlara təşəkkür edir. "